**Xalqımız bu günlərdə Azərbaycanın ictimai-siyasi həyatında həlledici rol oynayan, yarandığı gündən milli maraqlarımıza xidmət edən Yeni Azərbaycan Partiyasının 30 illik yubileyini saygı-sevgi ilə qeyd edir. Doğma Qarabağımızın Prezidenti, müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi altında, şanlı ordumuzun qəhrəmanlığı sayəsində azad edilməsinin, düşmən üzərində qazanılan tarixi Qələbənin ikinci ildönümü günlərində bu yubileyin ümumölkə miqyasında təntənə ilə keçirilməsi ikiqat bayram əhvalı yaradır.**

Müstəqillik qazandığımız ilk dövrdə, ölkəmizin üzləşdiyi sınaqlar şəraitində yaradılmış Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yol, demək olar ki, müstəqilliyimizin də 30 illik tarixi ilə üst-üstə düşür. Ərazi bütövlüyümüzün bərpası və YAP-ın yubiley tarixlərinin eyni vaxta düşməsi də xüsusi əlamətdarlıq yaradır. Bunu təsadüfən xatırlatmadıq. Çünki yaradılarkən Yeni ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Məhz buna görə də ulu öndər Azərbaycanın dövlətçilik xəttini, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, ümumi inkişafın təməli olan milli ideyanı – azərbaycançılıq məfkurəsini də dövlətçilik ideologiyası səviyyəsinə qaldırdı.

**Yeni Azərbaycan Partiyası – 30**

# Milli dövlətçilik və xalq maraqları partiyası

Azərbaycan Partiyasının qarşısına qoyduğu ali məqsədlər sırasında Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, işğal altında olan torpaqlarımızın azad edilməsi, üçrəngli bayrağımızın Qarabağımızda, onun tacı olan Şuşada dalğalandırılması kimi müqəddəs vəzifələr ilk sırada gəlirdi.

Yeni Azərbaycan Partiyasının yaradıcısı və ilk sədri ulu öndər Heydər Əliyev qətiyyətlə bildirmişdi ki, Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur. 44 günlük Vətən müharibəsində 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə bu hökmü gerçəyə çevirən, üçrəngli bayrağımız qədim və tarixi qalamızda ucaldıqdan sonra bu xoş müjdəni xalqımıza çatdıran müzəffər Ali Baş Komandan İlham Əliyev qazanılmış Zəfəri tarixə bu sözlərlə yazdı: “Mən bu gün ulu öndər Heydər Əliyev məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”.

YAP-ın yaranmasından danışarkən, ilk növbədə, o zaman 91 nəfər Azərbaycan ziyalısının ulu öndər Heydər Əliyevə müraciəti yada düşür.

Bu haray, bütövlükdə, Azərbaycan xalqının çağırışı idi. Həmin müraciətdə yeni yaradılan Yeni Azərbaycan Partiyasına Heydər Əliyevin rəhbərlik etməsi xahiş edilirdi. Çünki o dövrdə ölkənin üzləşdiyi mürəkkəb və ağır problemlərin öhdəsindən layiqincə gələ biləcək şəxs yalnız ulu öndər Heydər Əliyev ola bilərdi. Ona görə də,1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan YAP-ın təsis konfransında ümummilli lider Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Bir il sonra isə tarixi fəlakəti sovuşdurmaq üçün ölkə rəhbərliyinə dəvət edilmiş Heydər Əliyev prezident seçkilərində xalqın mütləq çoxluğunun səsini qazanaraq ölkə Prezidenti seçildi.

Yeni Azərbaycan Partiyası 1992-ci il noyabrın 21-də sosial sifarişlə və tarixi zərurətdən meydana gəldi. Bu yeni tipli ümumxalq partiyası yarandıqdan cəmi 6 ay sonra YAP hakimiyyətə gəldi və bu günədək iqtidar partiyası mövqeyini və nüfuzunu qoruyub saxlayır. O çətin illərdə “Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub-saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır”, – deyən ümummilli lider Heydər Əliyev, ilk növbədə, ölkədə sabitliyin bərpasını və vətəndaş həmrəyliyini vacib hesab edirdi.

Dünya şöhrətli siyasətçi və dövlət xadimi o zaman böyük uzaqgörənliklə bildirirdi ki, əgər ölkədə ictimai-siyasi sabitlik, sağlam

Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal olunur, paytaxt Bakıda isə hakimiyyət uğrunda qızğın mübarizə gedirdi. Siyasi təşkilatlar özünə silahlı dəstə yaradır, tam özbaşınalıq və xaos hökm sürürdü. İctimai-siyasi fəlakətlə üz-üzə qalmış xalqımız, ictimaiyyət yaxşı dərk edirdi ki, dövlət müstəqilliyimizi yalnız Heydər Əliyev dühası, onun zəngin idarəçilik təcrübəsi, mübarizliyi, milli mənafeyə sadiqliyi qoruya bilər. Xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdan ümummilli liderin böyük qətiyyəti və iradəsi, nadir və iti dövlətçilik zəkası, incə siyasi duyumu, misilsiz vətəndaşlıq hünəri, Vətənin müstəqilliyi yolunda öz həyatını qurban verməkdən belə çəkinməməsi nəticəsində müstəqilliyimizin möhkəmləndirilməsi yolundakı maneələr məharətlə dəf edildi.

Ümummilli lider Heydər Əliyevdən sonra onun siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə də ölkəmiz çox böyük uğurlara imza atıb. Son 18 ildə görülən işlərə, müxtəlif sahələrdə həyata keçirilən çoxsaylı layihələrə, ümumi siyasi xronikaya baxmaq kifayətdir ki, Azərbaycanın uğurlu inkişaf mənzərəsi göz önündə canlansın. Bu uğurların əsasını, Prezident İlham Əliyevin xalqın rifahı naminə həyata keçirdiyi prinsipial və ardıcıl siyasət təşkil edir.

Bu gün Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünü inkişaf etmiş, dünyada öz sözünü deyən, çəkisi olan bir dövlətdə qeyd edirik. Şübhəsiz ki, dövlətimizin bu uğurlarında YAP-ın da böyük və əvəzsiz xidmətləri vardır. Bu partiya ötən 30 il ərzində xalqın partiyası kimi fəaliyyət göstərib, milli və dövlətçilik maraqlarından çıxış edərək, müstəqilliyimizin möhkəmlənməsinə, ölkəmizin inkişafına böyük töhfələr verib.

**Tofiq CAHANGİROV,**
**YAP İdarə Heyətinin üzvü,**
**Elmi-Tədqiqat Kardiologiya İnstitutunun şöbə rəhbəri,**
**professor**